**SAVÇI KÖÇÜR İZİ QALIR M.Ərğəvan**

**Gecə saat 00:45dır** . Mən isə dərin düşünclərə dalıbda1992 ili anılayıram .
Bununda bir nədəni var . Nədənsiz bir olay , görüş və anıla doğulmur məncə .
Gecə saat 00:45 və qurbətın unudulmuş köşəsində Nailə , Şəfəq və Əntiqəni
düşünürəm . Bu sevgili dostlarımı çox sevirəm və heç zaman göstərdikləri qayğı
və sayğını unutmadım . O , zaman M.Rəsulzədə adına Bakı Dövlət Biliyurdunun
öyrəncisi idim . Nə gecə , nə də gündüzümüz varidi. Zaman tapdiqca praktik üçün
Radiyo otaqlarına üz tütürdum . Bu otaqların qapısı öyrəncilər üzünə qolayca
açılmırdı . Bir Bayquş yuxarıdan banlamasaydı səhər açılmazidi sanki . Çünki
savetçilik mikrobu hər yerə bulaşmışdır. Bütün bunlara baxmıyaraq Nailə Muradxanova gənclər üçün bir səngər idi. Harda bir mıxa ilişən kimi bu sevgili uzman özünü yetirmiş olurdu . İndi gecə saat 00:45-dir . Yalnızca mənəm birdə xəyalımdakı savci dostlarım .
Şəfəq ilə Əntiqə xanım sevdiyim savçılardan idi . Ancaq könlümdə Nailənin başqa yeri var.
O , mənim sevgim idi .
O , mənim unudulmazım idi .
O , mənim yönətimcim idi .
O , mənim doğrudan-doğrusu uzmanım və sırdaşım idi .
O , yalnız məni deyil, başqa öyrənciləri də sevirdi . Bu sevgiyə qısqanırdım .
Nailə Muradxanlı bütöv Azərbaycan diləyində yaşayırdı . Onun haqqında uzmanlarım
danışdı . Mən isə öz görüşümü demək istəyirəm .
O , bir qadın kimi geriçiliyi parçalayıb yeniyik uğrunda savaş aparırdı .
O , bir qadın kimi ürkli və adamın gözlərinə dik baxırdi .
O , bir qadın kimi sözünü boş yerə xərcləmirdi .
O , bir qadın kimi olduğu bənzər görünüb və göründuyu kimi yanaşırdi .
O , bir qadın kimi könül qırmayırdı .
O , bir qadin kimi özünə və görəvisinə öyünməyirdi ...
Mən Radiyo idarəsinə gedər kən Nayilə xanıma yaxinaşırdım . Ara-sıra
zamanı olmayanda bilə get Şəfəq xanımın otağına deyirdi . Bir gün o:--
--Savçılıq bir eybəcər işdir . Çünki eybəcərlər ilə oturub duracaqsan .
Buna görəki eybəcər dünyamızda eybəcərlər öndə gedirlər !
dedi ...
Onun ən yaxındaşı və sırdaşı Şəfəq xanım idi, məncə . Onları bir birindən
ayrı görmədim . Sevgili Şəfəq xanım öyrəncilər sarıdan sevilərək maraqla
qarşılanırdı . Yeri gəlmişkən bir anıla dezim .
-Şəfəq xanım mikrofon arxasında gerçək bir kimlikdi . Onun doğal və səmimi yanaşmaları güc verir dinləyicilərə .
Hər zaman radiyo verlişlərində səsini dinlərkən içimdə bir şəfəq doğururdu. Şəfəq!
O , bir şairi tez-tez verlişə çağırırdı . Yarım saat danışdırıb , yola salırdı . Bir gün
nədənin sorub da:--
--Nə üçün bu adamı vəngildədirsən bu qədər?
--Madona gözlərinə fır verib də:--
--Bu adam parasızdır , yeməyə çörəyi çatmır . Birazca yardımçı olum diyə vəngildədirəm !
1992-ci ildə həyat qazeti çıxırdı . Əntiqə xanım həmin qazetədə savçılıq görəvisini daşıyırdı .

Ona qarşı eybəcərlər hər zaman quyu qazərdılar . Sevgili Əntiqə çox çalışıb az əmək alan dostlarımdandır diyə bir anıla .Bir gün evinə çağırmışdı məni . Kiraçı idi o zaman . Kiçik bir otaqlı evdə yaşıyırdı . Biz çox yaxındaşıyıdıq . Bir gün:--

--Hər zaman bir zorluq ilə üzləşdin mənə gəl və qapım üzünə açıqdır . Qalmağa yerində olmazsa , birgə qala bilərik !

dedi Əntiqə . Bu dostalrəımı sevdiyim üçün zaman-zaman anılayıram . Sözümün sonunda yenə Nailə Muradxanlı bir eyitimçi olaraq , gerçək bir uzman idi . Onun yücəliyi gözlərimin önünündə və ipəksu səsi qulaqlarımdadir . Demək savçı köçür və unudulmaz izi qalır .

M.Ərğəvan

26 Temmuz 2010 Berlin